

# AİLƏ SƏADƏTİ

Zakir Bağır

**İştirak edirlər:**

*Samirə Aydınlı*
*Mahir*
*Asim*
*Əsəd müəllim*
*Nizam - Mahirin atası*
*Siddiqə - Mahirin anası*
*Kərəm dayı - Samirənin atası*
*Alimə - sinif nümayəndəsi*
*Lalə - Mahirin həyat yoldaşı*

## *İki hissəli müasir faciə*

### BİRİNCİ HİSSƏ:
### *BİRİNCİ ŞƏKİL*

*Məktəb. Sonuncu sinif. Zəng içəri vurulur. Şagirdlər yerlərində oturublar. Müəllim alçaq boylu bir qızla içəri girir.*

**Əsəd müəllim** - Samirə Aydınlı sizinlə oxuyacaq. Asim, sənin boyun çox ucadır. Keç arxaya, qoy, Samirə Mahirlə otursun.

*Asim dəftər-kitablarını yığışdırıb arxa partaya keçəndə Mahirə göz vurur. Mahirin üzünə qızartı çökür. Uşaqlar maraqla Samirəyə baxırlar. Sinifdə pıçıltı eşidilir.*

**Əsəd müəllim** - Diqqətli olun, uşaqlar.

**Asimin pıçıltılı səsi** - Heç bilirsiniz, Samirə Aydınlı kimdir?

*O, uşaqları intizarda saxlamaq üçün bir qədər susur.*

**Asim** - Detdomda yaşayır. Detdomu bizim rayona köçürüblər. Mahir diksinir, təəccüblə Asimə baxır.

*Mahirin daxili səsi - Görəsən ata-anası kimdir? Necə olub detdoma düşüb?*

**Əsəd müəllim** - Mahir, sənə nə olub? Xəstə deyilsən ki?

**Mahir** - Xeyr.

*Asim Samirəni göstərərək, Mahirə göz vurur. Mahir ona yumruğunu göstərir.*

**Əsəd müəllim** - Mahir, gəl dərsi danış.

*(Mahir könülsüz qabağa gedir).*

**Mahir** - Bu günki dərsimiz...

**Əsəd müəllim** - Sənə nə olub? Dərsə niyə hazırlaşmırsan?

**Mahir** - *(susur).*

**Əsəd müəllim.** *(Başını bulayır).*

- Heç səndən gözləməzdim. Keç otur, iki alırsan.

*Zəng vurulur. Uşaqlar iki-bir çantalarını götürüb sinifdən çıxırlar.*

**Mahir** *(Samirə Aydınlıya)* - Deyəsən tələsirsən?

**Samirə** - Elədir. Anacan yolumu gözləyir.

**Mahir** *(heyrətlə)* - Anacan? Məgər sənin...?

**Samirə** - Hə anacan. Biz uşaq evinin müdirəsini belə çağırırıq.

**Mahir** - Bağışla, Sami...Xətrinə dəydim.

**Samirə** - Bilə-bilə demədin ki...Amma mənə Sami demə. Adım-familyam var. Samirə Aydınlı. Hələlik, Mahir.

**Mahir** - Hələlik Sami...

**Samirə** *(hirslə)* - Yenə Sami? Sənə dedim axı, mənim adım-familyam var...

*O, sinifdən çıxır. Yenə həmin şəkil. Artıq bir gün keçmişdir. Uşaqlar sinfə daxil olurlar.*

**Mahir** - Salam Sami...

*Samirə diksinir. Acıqlı-acıqlı Mahirə baxır. Bu an Asim sinifə girir. Azca başını əyib hər iki əlini sinəsi üstünə qoyur.*

**Asim** - Sevgililərə eşq olsun!

*Mahir ona bir şillə ilişdirir. Asim özünü saxlaya bilməyib yerə yıxılır. Uşaqlar gülüşürlər.*

**Asim** *(ayağa qalxa-qalxa)* - Mən sənə göstərərəm.

*Mahir ona ikinci şillə vurur. Samirə Aydınlı ağlayır. Əsəd müəllim içəri girir. Amma uşaqlar bundan xəbərsizdirlər.*

**Əsəd müəllim** - Bu nə hərəkətdir? Asim niyə yerdə uzanmısan? Samirə, sən niyə ağlayırsan?

*Sükut.*

**Əsəd müəllim** - Sizinləyəm.

**Samirə Aydınlı** *(ağlaya-ağlaya)* - Əsəd müəllim. Sizdən xahiş edirəm, məni başqa sinifə keçirəsiniz.

**Əsəd müəllim** *(təəccüblə)* - Niyə?

*Samirə Aydınlı susur.*

**Əsəd müəllim** - Asim ayağa qalx, pal-paltarını çırp, keç otur yerində.

*Asim ayağa qalxır. Yerinə keçəndə Mahirə:*

**Asim** - Bu sənə baha başa gələcək.

**Samirə Aydınlı** *(ayağa qalxır)* - Əsəd müəllim, xahiş edirəm, məni başqa sinifə keçirəsiniz.

**Əsəd müəllim** - Alimə, nə hadisə baş verib?

**Alimə** - Asim Samirə ilə Mahiri təhqir edib.

**Əsəd müəllim** - Açıq danış.

*Alimə sinif yoldaşlarına baxır. Onların üzlərində heç bir narazılıq görməyib əhvalatı danışır.*

**Əsəd müəllim** - Deməli belə. Asim, Mahir, Samirə qabağa gəlin.

*Onlar yazı taxtasının yanına gəlirlər.*

**Əsəd müəllim** - Asim, sən uşaqların qarşısında Mahirlə Samirədən üzr istə. Mahir, sən də sinifdə yoldaşını vurmaqla yaxşı iş görməmisən.

**Samirə Aydınlı** - Xahiş edirəm, məni başqa sinfə keçirəsiniz. Onsuz da mən bu sinifdə oxumayacağam.

**Mahir** - Sami...Samirə başqa sinfə keçməyəcək.

**Uşaqlar** - Samirə başqa sinfə keçməyəcək. Qoy Asim başqa sinfə keçsin.

**Əsəd müəllim** - Belə olmaz. Əhvalatı məktəb direktoruna danışacağam.

### İKİNCİ ŞƏKİL

*Nizamın evi. Siddiqə ilə Mahir söhbət edirlər.*

**Siddiqə** - Bircə bu qalmışdı!

*Mahir təəccüblə anasına baxır.*

**Siddiqə** - Bircə bu qalmışdı!

**Mahir** - Ana, nə olub?

**Siddiqə** *(Acıqlı)* - Bilmirsən nə olub? Atan bundan xəbər tutsa, heç bilmirəm nəticəsi nə olacaq?

**Mahir** - Axı nə olub?

**Siddiqə** - Sən məni lap hövsələdən çıxartdın. Məktəbdəki hadisəni deyirəm də. Niyə gözlərini döyürsən? Bircə o qalıb ki, orta məktəbin sonuncu sinfində oxuyan zaman eşqə düşəsən? Özü də kimə aşiq olasan?

Detdomda böyümüş bir qıza. Heç bilirsən belə qızlar nə yuvanın quşu olurlar?

*Mahir qızarır. Daxili səsi "Görəsən məktəbdəki əhvalatı ona kim danışıb? Əsəd müəllim? Məktəb direktoru? Bəs kim? Bəlkə Asim deyib?"*

**Asimin səsi** - "Şillə sənə baha başa gələcək!"

**Mahirin daxili səsi** - Demək Asim bu yolla məndən intiqam almaq istəyir? Ana, adam tanımadığı haqqında belə söz deməz!

**Siddiqə** - Görəcək günlərimiz varmış. Orta məktəbin axırıncı sinfində oxuyan bir uşaq doğma anasına dərs deyir. Səndə təqsir yoxdur. Oğul, detdomda böyümüş o qız deyəsən sənin başını xarab edib. Qoy atan gəlsin, açaram sandığı, tökərəm pambığı.

**Mahirin daxili səsi** - "Anam pis başlamayıb. Qara məni basınca, mən qaranı basım. Çox asan yoldur".

*Mahir ayağa qalxır. Öz otağına keçərkən.*

**Mahirin daxili səsi** - "Görəsən necə olub ki, Sami uşaq evinə düşüb? Ata-anası kimdir? Bəlkə valideynləri vəfat edib? Onu saxlayan olmayıb, veriblər uşaq evinə. Görəsən nədən ölüblər? Bəlkə də vəfat etməyiblər? Ayrılıblar...

*Qapının zəngi çalınır. Siddiqə qapını açır. Qoltuğunda bağlama olan Nizam içəri girir.*

**Nizam** - Hər vaxtın xeyir. Bəs uşaq haradadır?

**Siddiqə** - Öz otağındadır. *(Qoltuğundakı bağlamaya işarə edir).* Bu nədir?

**Nizam** - Kostyumdur. Uşaq üçün almışam. Çağır onu, qoy gəlib geyinsin. Görüm necə qalır ona?

*Siddiqə yerindən tərpənmir.*

**Nizam** - Sənə nə olub, uşağı çağırsana.

**Siddiqə** - Uşaq qaçmır ki, geyinəcək də. Gəl otur sənə sözüm var.

**Nizam** *(zarafatla)* - Yenə nə olub, xanım?

*Nizam əlindəki bağlamanı bir yerə qoyub, oturur. Siddiqə mətbəxə gedir. Bir azdan stəkan çay gətirir, Nizamın yanında oturur.*

**Siddiqə** - Sənə sözüm var.

**Nizam** - Nə sözdür belə?

**Siddiqə** - Mahir eşqə düşüb.

**Nizam** *(təəccüblə)* - Nə?

**Siddiqə** *(Bir qədər astaca)* - Uşaq onunla bir sinifdə oxuyan qız...

**Nizam** - Mən də deyirəm, nə olub? Qoy sevsinlər də. Burada qorxulu nə var. Bir yerdə oxuyurlar. Bir-birinin xasiyyətinə bələddirlər.

**Siddiqə** *(əsəbiliklə)* - Sənin belə laqeyd münasibətin uşağın axırına çıxacaq. Heç bilirsən qız kimdir?

**Nizam** - Kimdir?

**Siddiqə** - Ata-anası bilinməyən. Detdomda yaşayır.

*Nizam diksinir. Araya sükut çökür.*

**Nizam** - Nə olsun. Bəlkə ata-anası qəzaya düşüb? Keçmə sənin bu hərəkətindən. Hər adama bir damğa vurursan.

*Siddiqə əsəbi halda ayağa qalxır.*

**Siddiqə** - Detdomda yaşayan qızların nə yuvanın quşu olduğunu yaxşı bilirəm. Razı olmaram, yeganə əziz əsləfim belə bir qızla evlənsin. Elə indicə uşaqla danış. Sabah isə məktəbə get. Ya o qızı başqa məktəbə götürsünlər, ya da Mahiri.

**Nizam** - Heç bilirsən nə deyirsən? Dörd-beş aydan sonra onlar məktəbi bitirəcəklər. Hansı direktor məzununu başqa məktəbə göndərər?

**Siddiqə** - Bilmirəm, uşaqla ciddi danış.

*Nizam düşüncəli halda Mahirin otağına sarı addımlayır.*

*İşıqlar sönür və yanır. Yenə həmin şəkil.*

- Sənə sözüm var.

**Nizam** - Nə söz? *(yana)* Yenə deyəcək: "Filan qonşu arvadına brilyant alıb. Filankəs filan şeyi alıb. Mən onlardan əskik kişinin həyat yoldaşıyam? İndi gəl, Siddiqənin belə ürək bulandıran sözlərini dinlə."

*Yanaşı otururlar.*

**Nizam** - Nə sözün var mənə?

**Siddiqə** - Deyirəm, gəl Mahiri evləndirək!

**Nizam** - *(heyrətlə)* Nə?

**Siddiqə** - Deyirəm uşağı evləndirək.

**Nizam** *(gülür)* - Özün deyirsən uşaq. Sonra da onu evləndirmək istəyirsən. Bunu necə başa düşək, Siddiqə xanım? Mahir hələ orta məktəbi bitirməyib. Qarşıda buraxılış imtahanları var. Ali məktəbə girməsi, beş il oxumasını demirəm. Nə vacib işi düşüb ki, onu evləndirək?

**Siddiqə** - *(qətiyyətlə)* Uşağı evləndirəcəyik, vəssalam.

**Nizam** - Axı niyə belə tez? Dünyanın axırıdır?

**Siddiqə** - Dünyanın yox, məhəbbətin...

**Nizam** - Səni başa düşmürəm.

**Siddiqə** - Nizam, mən istəmirəm oğlum detdomda böyümüş qızla evlənsin. İstəmirəm...Yaxşı bilirsən Mahirin o qıza münasibəti yaxşıdır. Olmadı elə, oldu belə...Onda nə edəcəksən?

**Nizam** - Necə yəni?

**Siddiqə** *(Bilmir fikrini necə ifadə etsin)* - Allah eləməmiş...Deyirəm...

Uşaqları olsa...Ona nə edəcəyik? Bayaqdan söz-söhbət nə üçündür? Evləndirək uşağı.

**Nizam** - Bu barədə Mahirlə danışmısan? Bəlkə o razı deyil?

**Siddiqə** - Onu başlı-başına buraxsan, çox işlərdən çıxacaq. Gəlin tapmışam. Əmirxanlının qızıdır.

**Nizam** - Əmirxanlını tanıyıram.

**Siddiqə** - Lap yaxşı, indiki tanıyırsan, qulaq as. Onun qızını almaq istəyirəm. Günü sabah biz qadınlar elçiliyə gedəcəyik. Sonra da siz kişilər...Danışacağam ki, toyu tez eləyək.

**Nizam** - Bəlkə qız etiraz etdi?

**Siddiqə** - Bura rayondur. Günəşli rayonu. Yoldaş Nizam. Həşimli vəzifəli şəxslərlə qohum olmağa hamı can atır. Oğlanın qızı və ya qızın oğlanı sevməsi isə heç kimi maraqlandırmır. Əsas valideyndir. Sən bir idarə rəhbəri kimi bunu çoxdan hiss etməli idin.

**Nizam** - Nə deyirəm ki...

**Siddiqə** - Bakıya maşınla gedəcəksən?

**Nizam** - Yox qatarla gedəcəyəm.

**Siddiqə** - Özün bilən məsləhətdir *(sevincək yana)*. Nə yaxşı oldu maşın mənim ixtiyarımda olacaq. Nə geyinəcəksən?

**Nizam** - Hər halda bir paltar geyinəcəyəm də.

**Siddiqə** - Qəhvəyi kostyumunu gey, yaman yaraşır sənə. Sən çörəyini ye. Mən də köynəyi ütüləyim. Bu gün sənə nə olub? Birinci dəfə deyil ki, kollegiyaya gedirsən?!

*Mahir yan otaqdan çıxır.*

**Mahir** - Salam.

**Siddiqə** - Salam, ay oğul. Deyəsən acmısan? Otur atanla bir stol başında. Qoy o da iştaha ilə yesin.

*Mahir stul çəkib oturur. Təəccüblə atasına baxır.*

**Mahir** - Nə olub, ata? Bikefsən?

**Nizam** - Heç, sən çörəyini ye.

*Siddiqə yan otaqdan gəlir.*

**Siddiqə** - Paltarın hazırdır.

**Mahir** - Ata gedirsən? Bəlkə ötürüm səni?

- Lazım deyil oğul.

*Nizam paltarını dəyişmək üçün yan otağa gedir. Bir azdan əlində diplomat çanta otaqdan çıxır.*

*Siddiqə telefonda nömrə yığır.*

**Siddiqə** - Sabah saat doqquzda bizə gəl...

*Mahir yan otağa keçərkən öz-özünə: Yazıq sürücü, mamanın əlindən bezar olub. Görəsən indi onu nə eləyir?*

*Siddiqə yenə telefonda nömrə yığır.*

**Siddiqə** - Cavahir xanımdı? Bıy tanımadın məni? Siddiqəyəm də...Çox sağ ol, hamı yaxşıdır. Sənə salam duvaları var. Sabah doqquzun yarısı üçün bizə gəl. Əlbəttə xeyirdir. Mahir üçün elçiliyə gedəcəyik. Oğul-qızından görəsən, inşallah.

*İşıqlar sönür. Və yanır. Yenə həmin şəkil. Nizamın evi. Siddiqə malını oxuya-oxuya ütü vurur. Mahir hirslə içəri girir.*

**Siddiqə** *(həyəcanlı halda ona baxır)* - Səndən nə əcəb? Belə tez gəlmisən? Xəstələnməmisən ki?...

**Mahir** - Məni nişanlamağınız düzdür?

*Siddiqə mehribanlıqla oğlunun saçlarını sığallayır.*

**Siddiqə** - Əlbəttə düzdür. Bütün ata-anaların arzusu övladının toyunu eləməkdir...

**Mahir** - Yaxşı arzudur. Amma...

**Siddiqə** *(mehribancasına)* - Eşitmişik övlad toy ərəfəsində sevindiyindən quş olub qanad çalmaq istəyir. Sən isə...Allaha çox şükür ki, böyük vəzifə sahibi olan atan sağ-salamatdır. Anan da gözünün qabağında durub.

**Mahir** - Bu əsas verirmi, ata-ana övladını özündən xəbərsiz nişanlasın?

Heç qızı görməmişəm. Onunla bir kəlmə belə kəsməmişəm...

**Siddiqə** - Məgər qızı tanımırsan? Bəlkə də o qədər söhbət etmisiniz ki...

**Mahir** - Tutaq ki, qızı tanıyıram. Onunla söhbət etmişəm. Onu sevmirəm axı. Mənim öz...

**Siddiqə** - Sevgi boş şeydir. Uşağınız olar, bir-birinizə öyrəşərsiniz. Heç bir valideyn övladının pis gününü istəməz. İndi sənin elə vaxtındır ki...O detdom qızından sənə heç bir şey çıxmaz. Adama arxa lazımdır, qüvvətli arxa. Dağ da arxasız olmasın. Nə qədər ki, atan sağdır, vəzifəsi var, ondan istifadə elə. Özün görürsən ki, atan iki gündür Bakıya gedib. Bizə gələnlərin sayı azalıb.

### 4-CÜ ŞƏKİL

*İnstitutun yataqxanası. Komendant əlində zənbil içəri girəndə Mahirlə rastlaşır.*

**Kərəm dayı** - Salam, Mahir bala.

**Mahir** - Salam, Kərəm dayı. Verin kömək edim.

**Kərəm dayı** - Sağ ol, bala. Dərslərin necədir? İmtahanları verirsənmi?

**Mahir** - Bir imtahanım qalıb.

**Kərəm dayı** - O gün səni müəllimlərdən soruşdum. Razılıq etdilər. Gərək axırıncı imtahanı da yaxşı verəsən.

**Mahir** - Çalışaram.

**Kərəm dayı** - Bala, çoxdandır səninlə görüşüb söhbət etmək istəyirdim. Ürəyim sənə yaman qızıb. Deyirəm, bu axşam şamımızı mənim balaca otağımda eləyək.

**Mahir** - Nə deyirəm ki...

**Kərəm dayı** - Mahir bala, qəzet-jurnalları vərəqlə. İndicə gəlirəm. *(Mətbəxə keçir).*

**Mahir** - Sizə kömək edim?

**Kərəm dayı** - Lazım deyil. Düz 17 ildir ki, özüm-özümə yemək bişirib, paltar yuyuram. Adətkardayam, bala.

**Mahir** - "Görəsən arvad-uşağı hanı?"

**Kərəm dayı** - Darıxırsansa televizoru aç.

*Mahir televizoru açmaq istədikdə, gözləri televizorun üstünə qoyulmuş şəkilə sataşır. Cavan qadınla cavan kişinin birgə çəkdirdikləri şəkil.*

**Mahir** - *(şəkili götürüb baxır)* Sami?...Sən hara, bura hara?

**Kərəm dayı** - Darıxdın? Mahir bala, Bu şəkil 17 ildir ki, mənimlə yoldaşdır. Gözümün qabağında olsun deyə onu burada qoymuşam. Hə, kədərli əhvalatdır. Qanını qaraltmaq istəmirəm.

**Mahir** *(maraqla)* - Danışın, Kərəm dayı.

**Kərəm dayı** - Texnikumu bitirmişdim. İşimdə razılıq edirdilər. Bir neçə ay keçdi məni bir pillə qaldırdılar. Sevdiyim qızla evləndim. Müəssisə məni qiyabi yolla təhsilimi davam etdirmək üçün ali məktəbə göndərmək istəyirdi. Başladılar imzasız məktublar yazmağa. Komissiyaların biri gəlib, biri gedirdi. Faktların yalan olduğunu görürdülər. Mənə başqa cür zərbə endirdilər. Bir gün mənə imzasız məktub gəldi. Özgə rayondan göndərmişdilər. "Arvadın...Arvadın..." Belə məktubların sayı günü-gündən artırdı. Evdən bayıra çıxmağa utanırdım. Mənə elə gəlirdi ki, hamı istehza ilə mənə baxır:

"Arvadın..." - Deyirlər yeməyim pozulmuşdu. Özümü xəstə kimi hiss edirdim. Bir gün səbrim tükəndi. Boşadım arvadımı. İşdən çıxıb başqa rayona köçdüm. Burada da məndən əl çəkmədilər. Baş götürüb Xarkova gəldim. Sonralar öyrəndim ki, bir neçə aydan sonra qızım olub. Anası onu uşaq evinə verib, özünü isə dənizdə boğub. Sonralar hər şey aydınlaşdı. Məndən intiqam almaq üçün belə tələ qurmuşdular.

**Mahir** - Bəs qızınızı axtarmadınız?

**Kərəm dayı** - Çox axtardım, tapmadım. Əslində qalsa körpənin adını bilmirdim. İndi o vaxtdan 17 il keçib. Kim bilir qız sağdır, ya yox?

*Mahir şəkilə baxır.*

**Mahir** - *(öz-özünə)* Yox səhv etmirəm. Bu Samirənin yaşa dolmuş şəklidir.

**Kərəm dayı** *(şəkilə baxır)* - Bu mənəm, bu da həyat yoldaşım. Samirə idi adı. Dost-tanışlar deyərdilər ki, şəkildə belə mehribansınız, həyatda da belə mehriban olun.

Hə, ara-sıra fars-ərəb dillərində oxumağım vardı. İş yoldaşlarım çox vaxt mənə zarafatla "Kəlbi" deyirdilər.

*Mahir cəld otaqdan çıxır.*

**Kərəm dayı** - Bıy, uşağa nə oldu?

*Bir azdan Mahir əlində qəzetə bükülmüş bir şey içəri girir.*

**Mahir** - Sizi sevindirmək istəyirəm, Kərəm dayı. *(Qəzeti açır).*

Sinif yoldaşlarımla çəkdirdiyim şəkildir. *(Şəkili Kərəm dayıya göstərir).*

- Bir şəkilə baxın.

*Kərəm dayı şəkilə baxır. Diksinir.*

**Mahir** - Sinif yoldaşımdır.

*(Barmağı ilə işarə edir).*

- Samirə Aydınlı.

**Kərəm dayı** - Demək anası öz ad-familyasını qoyub qıza. Səni şad xəbər olasan, Mahir bala. Elə bu gün yola düşəcəyəm.

**Mahir** - Mən də gələrəm.

**Kərəm dayı** - Bəs imtahan?

**Mahir** - Axırıncı imtahana bir həftə qalıb.

PƏRDƏ.

### 5-Cİ ŞƏKİL

*Nizamın evi. Siddiqə ilə Nizam ağır vəziyyətdə çarpayıda uzanıblar. Hər ikisinin əl-qolu sarıqlıdır.*

**Kərəm dayı** *(Nizamın üz-gözündən öpür. Siddiqənin qolundan tutur.)* - Sizə nə olub? Qardaşım?

**Nizam** - Avariya...

**Kərəm dayı** - Sən ki, yaxşı maşın sürürsən.

*Nizam Kərəm dayıya və Mahirə baxır, gülümsünür.*

**Kərəm dayı** - Qardaşım, qızımı tapmışam, bilirsən kim kömək etdi, qızımı tapmaqda? Mahir bala...

*Siddiqə gah Kərəm dayıya, gah Samirəyə, gah da oğluna baxır, gülümsünür. Əli ilə Samirənin gəlməsinə işarə edir. O, qızı öpmək istəyir, amma başını qaldıra bilmir. Samirə üzünü onun dodaqlarına yapışdırır.*

**Siddiqə** *(ağır-ağır)* - Öz əllərimlə oğlumu bədbəxt etdim. Sizi xoşbəxt...

**Nizam** - Kəlbi, oğlumu sənə tapşırıram.

*Kədərli musiqi.*

PƏRDƏ.